

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 249 (23.160)

*27 dekabr 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhəri Dairəvi avtomobil yolunu Şərifzadə küçəsi ilə birləşdirən yeni yolun, həmçinin Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksinin açılışında iştirak edib, Agentliyin yeni yaşayış kompleksinin təməlini qoyublar.

Dövlətimizin başçısı yeni yolun rəmzi açılışını bildirən lenti kəsib.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksinin açılışında iştirak ediblər.

Kompleksin ərazisində 161 saylı tam orta məktəbin binası da inşa edilib.

Dövlətimizin başçısı və birinci xanım burada yaradılan şəraitlə tanış olublar.

* * *

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Yasamal rayonunun Yeni Yasamal yaşayış massivi, Məhəmməd Xiyabani küçəsində yerləşən istirahət parkında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.



## Naxçıvan şəhərində yeni xidmət sahəsi fəaliyyətə başlayıb

*Dekabrın 26-da Naxçıvan şəhərində "Nəqşicahan Holdinq Şirkətlər Qrupu" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Görüş yeri" kafesi fəaliyyətə başlayıb.*

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Seymur Talıbov çıxış edərək bildirib ki, muxtar respublikanın hərtərəfli inkişafı onun gündən-günə çiçəklənməsinə, yeni xidmət sahələrinin yaradılmasına imkan verib. Bu gün istifadəyə verilən yeni xidmət sahəsi də muxtar respublikamızda gənclərə göstərilən dövlət qayğısının növbəti ifadəsidir. Ümid edirik ki, yeni xidmət sahəsi gənclərin lazımi istirahətinə, onların asudə vaxtlarını səmərəli keçirmələrinə imkan verəcəkdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov bildirib ki, muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirləri sırasında Naxçıvan şəhəri də gündən-günə gözəlləşir, yeni yollar, yaşayış binaları və xidmət sahələri istifadəyə verilir. Bu gün fəaliyyətə başlayan "Görüş yeri" kafesi də şəhər sakinlərinin və gələn qonaqların asudə vaxtlarının səmərəli təşkilinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev yeni xidmət sahəsinin yaradılmasını gəncliyə göstərilən qayğı kimi dəyərləndirib, yaradılmış





şəraitə görə minnətdarlıq edib.

Sonra xidmət sahəsinə baxış olub. Məlumat verilib ki, "Görüş yeri" kafesi zirzəmi ilə birlikdə üç mərtəbədən ibarətdir. Ümumi sahəsi 2457 kvadratmetr olan kompleks 3 fərqli istiqamət üzrə fəaliyyət göstərir. Binanın birinci mərtəbəsində "Bullet" Steak House xüsusi reseptləri əsasında ət və ət məhsullarından müxtəlif təamlar hazırlanır. Menyu üzrə hər bir təamın xammalının öz xüsusi saxlanma üsulu və temperaturu var. Binanın ikinci mərtəbəsində isə əsasən "CHEFM" markası ilə fastfood yeməklər hazırlanır. Bu yeməklərin hazırlanmasında yerli ərzaq məhsullarından istifadə olunur. Markanın məqsədi müasir standartlara cavab verən texnologi-





yalardan istifadə edərək yüksəkkeyfiyyətli məhsulları ilə müştərilərinə xidmət göstərmək, yerli məhsulların dadlarını və ənənələrini dünyaya yaymaqdır. Qeyd edək ki, bütün məhsullar dünya standartlarına uyğun hazırlanır və istifadə edilən avadanlıqlar dünyanın inkişaf etmiş ölkələrinin standartlarına tam cavab verir.

Üçüncü mərtəbədə yerləşən "Chocha" şokolad evi isə Naxçıvanda yaranmış yerli bir markadır. Şokolad evində isti və sərinləşdirici içkilər, müxtəlif şokoladlar, həmçinin xüsusi qablaşdırılmış müxtəlif müalicəvi otlar, meyvə quruları, çərəzlər təqdim edilir. Şokolad evində "Chocha" adı altında hazırlanmış xüsusi hədiyyəlik paketlər də əldə etmək olar. Eyni zamanda burada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamına əsasən oxunması zəruri olan kitablardan ibarət kitabxana da yaradılmışdır.

Yeni yaradılan xidmət sahəsində 30-a yaxın yeni iş yeri açılmışdır.

**"Şərq qapısı"**

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə tədbirlər keçirilib



Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə rayon mədəniyyət sarayında tədbir keçirib.

Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov çıxış edərək bildirib ki, ulu öndərimiz Heydər Əliyev bütün fəaliyyəti dövründə digər sahələrlə yanaşı, dünyanın müxtəlif ölkələrindəki soydaşlarımızla əlaqələrin qurulmasına, onların milli həmrəyliyinin təmin olunması məsələsinə də diqqət yetirib, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirib.

Vurğulayıb ki, dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini ulu öndər hələ 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının rəhbəri işləyərkən diqqət mərkəzində saxlayıb. Ümummilli liderimizin rəhbərliyi ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərar qəbul edilib. Həmin qərarın qəbul edilməsindən sonra bu bayram bütün dünya azərbaycanlıları tərəfindən birlik, həmrəylik günü kimi hər il böyük təntənə və qürur hissi ilə qeyd olunur.

Diqqətə çatdırılıb ki, 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyevin xarici dövlətlərə səfəri zamanı həmin ölkələrdə yaşayan, fəaliyyət göstərən soydaşlarımızla görüşməsi, onların problem və qayğıları ilə yaxından maraqlanması və dəyərli tövsiyələr verməsi birliyimizin daha da gücləndirilməsinə xidmət edib. Ulu öndərin siyasi xəttini uğurla davam etdirən Prezident cənab İlham Əliyev bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirib.

Məruzə ətrafında çıxışlarda vurğulanıb ki, dövlətimizin diaspor siyasəti soydaşlarımızın birlik və həmrəyliyinin möhkəmləndirilməsinə, onların daha mütəşəkkil formada təşkilatlanmasına səbəb olub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişləndirilməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, ermənilərin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər.

Tədbir bayram konserti ilə başa çatıb.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

"Dünya Azərbaycanlılarının Həmrəyliyi hərəkatı" mövzusunda keçirilən tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov açıb. Bildirib ki, 31 dekabrın bütün dünya azərbaycanlıları tərəfindən hər il ümummilli bayram kimi qeyd edilməsi azərbaycanlıların tarixi köklərə bağlılığının, milli yüksəlişinin, azadlıq mübarizəsinin qanunauyğun nəticəsi, yeni tarixi şəraitdə xalqımızın mənəvi dirçəliş və tərəqqisinin inikasıdır.

Arif Qasımov vurğulayıb ki, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul edilmiş tarixi qərar öz əhəmiyyətini 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı ilə bir daha göstərdi. 27 il ərzində dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində görülən işlərin təhlili onu göstərir ki, bütün sahələrdə olduğu kimi, bu sahədə də Azərbaycan dövlətinin gördüyü işlər mühüm əhəmiyyət kəsb edir. Hər il dekabrın 31-də azərbaycanlıların yaşadığı bir çox xarici ölkələrdə həmrəylik gününün bayram kimi geniş qeyd edilməsi onu göstərir ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xalqımızın birlik və həmrəylik hərəkatı artıq öz uğurlu nəticəsini verib.

Ali Məclisin deputatı çıxışında vurğulayıb



ki, ümummilli liderin uzaqgörən siyasəti nəticəsində bu gün müstəqil Azərbaycan bütün dünya azərbaycanlılarının Vətəninə çevrilib. Ulu öndərimizin şah əsəri olan güclü milli dövlətimizin olması milli həmrəyliyin və birliyin bütün dünyada yaşayan azərbaycanlıları əhatə etməsi baxımından çox vacib amildir. Bu, o deməkdir ki, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir soydaşımız doğma Azərbaycan üçün dəyərli olduğunu hiss edir, bu isə onu Vətən naminə çalışmağa daha da ruhlandırır. Bu gün dünya azərbaycanlıları qürur və iftixar hissi keçirirlər ki, onları müdafiə və himayə edən, hər bir azərbaycanlının inam və güvən yeri olan müstəqil Azərbaycan dövləti var.

Tədbirdə mövzu ətrafında çıxışlar olub, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilən film nümayiş edilib.

**Sərxan İSMAYILOV**

# İnvestisiya reytinqinin qalibi NAXÇIVAN



*Müasir dövrdə iqtisadi, sosial və mədəni sahədəki nailiyyətləri ilə diqqətləri özünə cəlb edən Naxçıvan Muxtar Respublikası innovativ və rəqabətqabiliyyətli iqtisadi inkişaf modeli qurmaq yolunda mühüm irəliləyişlər əldə edib. Dinamik və dayanıqlı inkişafa nail olmaq üçün muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin əsas hədəflərindən biri olan investisiya qoyuluşları sahəsində əldə edilən uğurlar isə daha qabarıq olub. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu “Caspian European Club” tərəfindən hazırlanan investisiya reytinqində ölkəmizin regionları arasında 2017-ci və yola salmaqda olduğumuz 2018-ci illərin nəticələrinə görə ard-arda iki dəfə liderlik qazanıb. Şübhəsiz, bu göstərici regional inkişaf prioritetləri baxımından qədim diyarın sosial-iqtisadi sahədə və xarici iqtisadi əlaqələrdə uğurlarını bir daha ortaya qoymaqla, həm də yeni investisiyalar üçün cazibədarlığını da artırmaqdadır.*

Sərmayə, yəni investisiya qoyuluşu iqtisadiyyatda əsas hədəflərə çatmaq üçün həyata keçirilən məqsədyönlü tədbirlərin mühüm tərkib hissəsidir. Belə tədbirlər nəticəsində iqtisadi artım və həyat səviyyəsinin yüksəlməsi, xüsusilə elmtutumlu innovativ sahələrin inkişafında arzuedilən nəticələr əldə olunur ki, bu da dövlətin investisiya siyasətinin əsas hədəflərindəndir. Belə ki, dövrün tələblərinə cavab verən investisiya siyasətini işləyib hazırlamaqla dövlət ölkə və region iqtisadiyyatının investisiya aktivliyini artırmaq və bununla da sosial-iqtisadi inkişaf üçün tələb olunan resursların cəlb edilməsinə və onlardan səmərəli istifadəyə şərait yaradır. Başqa sözlə, bazar iqtisadiyyatı şəraitində investisiya mənbələrinin üzə çıxarılması, onların lazımi istiqamətə yönəldilməsi dövlət investisiya siyasətinin əsas məqsədlərindən biridir. Planlı və məqsədyönlü şəkildə həyata keçirilən bu siyasət bəzi sahələrdə dərhal, bir sıra sahələrdə isə uzunmüddətli perspektiv üçün öz səmərəsini hökmən verir. Bu sahədə ölkəmizin regionları arasında lider mövqeyini möhkəmləndirmiş Naxçıvan Muxtar Respublikasında həyata keçirilən belə bir investisiya siyasəti də, son nəticədə, özünü real sektorun inkişafında, maliyyə potensialının və intellektual yaradıcı gücün artırılmasında göstərir. Bu da haqlı olaraq doğma diyarımızın cazibə qüdrətini artırır.

Naxçıvan Muxtar Respublikasının müasir inkişafında insan amilinə verilən diqqət ön planda durur. İqtisadi sahədə əldə olunan nəticələrin sosial sahəyə transformasiyası, uzunmüddətli dövrdə yeni, yaradıcı insan resurslarının formalaşdırılması həyata keçirilən bütün tədbirlərin, o cümlədən investisiya qoyuluşlarının da istiqamətini müəyyən edir. Əhali məşğulluğunun təmin olunması, insanların ən ucqar yaşayış məntəqələrində məskunlaşmasını daha da əlverişli edən quruculuq tədbirlərinin geniş vüsət alması, daha çox intellektual potensialın gücündən faydalanmağı nəzərdə tutan innovativyönümlü yeni texnologiyaların istehsalata fəal sürətdə tətbiqi məhz insan əməyinin yüksək qiymətləndirilməsi ilə nəticələnir ki, bu, iqtisadiyyatın istənilən sektorunda daxili imkanlar hesabına təkrar investisiya qoyuluşlarına sürətləndirici effekt təsirini göstərir. Xüsusən özəl sektor üçün bu cəhətə baxdıqda muxtar respublikada istehsal olunan ümumi daxili məhsulun həcmi ilə nisbətdə geniş investisiya qoyuluşu gücünün formalaşdığını demək olar. Məhz bu səbəbdəndir ki, 1990-cı illə müqayisədə muxtar respublikada sənaye müəssisələrinin sayı 8,5 dəfə artaraq 442-yə çatıb. Təkcə bir sahə üzrə rəqəmlərə baxdıqda görürük ki, son nəticədə, sakinlərin rifah səviyyəsinin artırılmasına yönəldilən belə sərmayə qoyuluşları istehlak bazarında yeni tələbatların formalaşmasına, bu isə, öz növbəsində, iqtisadi artımın dinamikasını müsbət səviyyədə saxlamağa imkan verən bir amildir.

İnvestisiyalar, xüsusən uzunmüddətli infrastruktur və daşınmaz əmlakyönümlü investisiyalar cəmiyyətdə yaranmış sabitliyin məhsulu, eyni zamanda yeni sərmayə qoyuluşlarının amillərindəndir. Yol, nəqliyyat, rabitə, içməli su təminatı, idman, sağlamlıq, rekreasiya və turizm kimi əhali rifahına birbaşa təsir edən sahələrə yatırılmış investisiyalar, bu mənada, iqtisadiyyatın digər sahələrinə də öz təsirini göstərməkdədir. Belə ki, bu məqsədlə yatırılmış hər manat ən azı 30 il müddətində öz çoxaldıcı təsirini göstərməklə sənaye, kənd təsərrüfatı, tikinti sektoru kimi sahələrə sabit maliyyələşmə zəmanəti verir. Muxtar respublikanın 200-dən artıq kəndinə çəkilmiş abad yollar, hər bir yaşayış məntəqəsini müasirliyə qovuşduran kənd və xidmət mərkəzləri, təhsil, səhiyyə və mədəniyyət ocaqları kimi yüzlərlə obyekt məhz bu siyasətin nəticəsində ərsəyə gəlib.

Bu gün dünyanın bir sıra iri dövlətlərində belə, kəskin problem kimi özünü göstərən ərzaq və enerji təhlükəsizliyi məsələsi Naxçıvanda tam şəkildə həll olunub. Ümumi gücü 239 meqavat olan 8 elektrik stansiyası, müasir texnologiyalara əsaslanan heyvandarlıq, quşçuluq, balıqçılıq, arıçılıq, bağçılıq, üzümçülük təsərrüfatları, soyuducu anbar və istixana kompleksləri, taxıl emalı müəssisələrindən ibarət 500-dən artıq kənd təsərrüfatı təyinatlı obyekt qeyd olunan sahələrdə iqtisadi mənafelərin tam təmin olunmaqla muxtar respublikanın idxaldan asılılığını tamamilə aradan qaldırıb. Xüsusilə muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin ümumi enerji istehsalında 60 faizdən çox və istehsal olunan ərzaq məhsullarının ekoloji təmiz və orqanik mənşəli olması təkcə Naxçıvana gələn yüksək səviyyəli qonaqların deyil, iqtisadiyyat üzrə ekspertlərin də diqqətindən kənarda qalmır. Bundan başqa, Naxçıvanda əhalinin müasir standartlara cavab verən içməli su ilə təmin olunması və müasir kanalizasiya sistemlərinin qurulması da diqqət mərkəzindədir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublika əhalisinin 40 faizdən çoxu beynəlxalq standartların tələblərinə uyğun içməli su ilə təmin olunur. Davam etdirilən işlər nəticəsində artıq bir neçə ildən sonra muxtar respublikanın bütün şəhər və rayon mərkəzləri və ətraf kəndləri tamamilə təmiz içməli su və kanalizasiya sistemi ilə təmin olunacaqdır. Bütün bu sadalananlarla birgə, ümumilikdə, son illər muxtar respublika iqtisadiyyatına 9,6 milyard manatdan çox investisiya yönəldilib, 12 mindən çox müxtəlif təyinatlı obyekt istifadəyə verilib.

Naxçıvan qısa müddətdə 415 minə yaxın turistin səyahət etdiyi turizm məkanına çevrilib. Turizm isə investisiya cazibədarlığı baxımından ən uğurlu sahələrdən biridir. Özəl sektorda təkcə yerli deyil, xarici investorların da diqqətini cəlb edən turizm layihələri gələcəkdə yerli əhalinin həyat səviyyəsini kökündən dəyişdirən amil kimi dünya təcrübəsində də sınaqdan keçib. Bu mənada, Naxçıvan Muxtar Respublikasında turizm sənayesinin hərtərəfli inkişafı üçün görülən işlər, yeni turizm-rekreasiya obyektlərinin, xüsusən müalicə və qış turizm məkanlarının yaradılması istiqamətində yatırılan sərmayə təkcə iqtisadi sahədə deyil, humanitar sahədə də əhəmiyyətli olub Naxçıvanın müsbət imicinin daha da yüksəldilməsinə mühüm töhfə verən faktorlardandır.

Sahibkarlıq fəaliyyəti iqtisadiyyatın hərəkətverici qüvvəsi, innovativ yeniliklərə və yeni investisiyalara çox həssas olan bir sahədir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsi məqsədilə müxtəlif mənbələr hesabına yatırılan investisiyalar, son nəticədə, iqtisadiyyatın şaxələndirilməsi, əhalinin tələbatlarının ödənilməsi üçün mümkün olan əmtəə və xidmətlərin istehsalına imkan yaradır. Nəticədə, iqtisadi həyata vəsiqə alan yeni layihələr gerçəkləşdikcə əhali gəlirləri artır və istehlak bazarında canlanma yaranır. Bu layihələr isə ötən dövrdə Naxçıvanda külli miqdarda olub. Belə ki, 2000-ci ildən ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 1270 layihənin maliyyələşdirilməsinə 142 milyon 298 min manatdan çox güzəştli kreditlər ayrılıb. Bunun da nəticəsində 2003-cü ildən ötən müddətdə muxtar respublika üzrə 73 mindən artıq yeni iş yeri yaradılıb, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

***Canlı bir orqanizm kimi iqtisadiyyatın da daim yenilənməyə ehtiyacı vardır. Sağlam təməllər üzərində qurulmuş iqtisadi sistemin zamanın tələblərinə uyğun olaraq modernizasiyası üçün isə yeni investisiyalar ən vacib şərtlərdən biridir. Bu sahədə də ötən dövrdə Naxçıvanda reallaşdırılan tədbirlər, keçilən inkişaf yolu ona liderlik mövqeyi qazandırıb.***

**Əli CABBAROV**

## *“Zümrüd Geyim”* Məhdud Məsuliyyətli Cəmiyyətində yeni çeşiddə məhsul istehsalına başlanılıb



Sahibkarlara dövlət tərəfindən hərtərəfli dəstəyin göstərilməsi, onlar üçün əlverişli şəraitin yaradılması, muxtar respublikada güclü sahibkarlar təbəqəsinin formalaşması ilə bərabər, yeni istehsal müəssisələrinin fəaliyyətə başlamasına, mövcud olanların isə fəaliyyətlərini genişləndirmələrinə yol açıb. Dövlət maliyyə dəstəyi ilə istehsal sahəsini genişləndirən müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Zümrüd Geyim” Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Dünən Naxçıvan şəhəri, Əliabad qəsəbəsi, Əcəmi 39 ünvanında yerləşən yaşayış binasının zirzəmisində “Zümrüd Geyim” Məhdud Məsuliyyətli Cəmiyyətinin köynək və alt trikotaj mallarının istehsalı sahəsi istifadəyə verilib. Bununla bağlı keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin direktoru Bəxtiyar İsmayılov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov iştirak ediblər.

Tədbirdə çıxış edən “Zümrüd Geyim” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mehrəngiz Əkbərova bildirib ki, daxili bazarın yerli istehsal məhsulları ilə təmin olunması üçün dövlət dəstəyi sayəsində sahibkarlıq subyektlərinin, özəl müəssisələrin yaradılmasının mühüm əhəmiyyəti vardır. Bu müəssisələrdən biri olan “Zümrüd Geyim” Məhdud Məsuliyyəti Cəmiyyəti də daxili tələbatın ödənilməsində iştirak edir.

Qeyd olunub ki, müəssisədə yeni istehsal sahəsinin yaradılmasına və müasir texnoloji avadanlıqların alınmasına 800 min manat vəsait sərf olunub. Bunun 485 min manatı Sahibkarlığın İnkişafı Fondundan ayrılmış kredit vəsaiti, 315 min manatı isə daxili imkanlar hesabına ödənilib.

Yeni istifadəyə verilmiş binada köynək istehsalı sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, iaşə xidməti göstərilməsi üçün yeməkxana və inzibati heyət üçün ayrı-ayrı iş otaqları yerləşib. İstehsal sahəsi təhlükəsizlik kameraları, havalandırma qurğuları, yanğından mühafizə və xüsusi işıqlandırma sistemləri ilə təchiz edilib.

Burada Yaponiya, Avstraliya və Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. İstehsal gücü 8 saatlıq iş rejimində 1000 ədəd köynək, kişi və uşaq alt trikotaj geyimləri olan müəssisədə 13 çeşiddə məhsul istehsal ediləcəkdir. Bu, daxili bazarın tələbatını ödəyəcək.

İstehsal sahəsində 45 yeni iş yeri açılıb. Burada çalışan işçilər xüsusi geyim forması ilə təmin olunublar.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Qazaxıstanda “Duzdağ günləri” adlı beynəlxalq konfrans keçirilib

*Qazaxıstanın Astana şəhərində “Duzdağ günləri” adlı beynəlxalq konfrans keçirilmişdir. Konfransda Naxçıvan Muxtar Respublikasından nümayəndələr iştirak etmişdir.*



Əvvəlcə Naxçıvanın qədim tarixi və bugünkü inkişafı, eləcə də Naxçıvan Duzdağı ilə bağlı film nümayiş olunmuş, duz kristalları, Duzdağ Fizioterapiya Mərkəzinin və “Duzdağ” otelinin fəaliyyətindən bəhs edən kataloq, broşür və digər əyani vəsaitlər sərgilənmişdir.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Turizmin inkişafı və təbliği sektorunun baş məsləhətçisi Piri Nağıyev konfransda çıxış edərək Naxçıvanın qədim tarixindən və bugünkü inkişafından danışmış, muxtar respublikada turizm sahəsində həyata keçirilən tədbirlərdən bəhs etmişdir. Duzdağ Fizioterapiya Mərkəzinin həkimi Nazim İbrahimli isə Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyəti barədə konfrans iştirakçılarına məlumat vermiş, ilin bütün fəsillərində mərkəzə müraciət edən xəstələrin qəbulu və müalicəsi üçün hər cür şəraitin yaradıldığını bildirmişdir.

Konfransda Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunan Qazaxıstan vətəndaşları çıxış edərək Naxçıvanda onlara göstərilən qayğıdan danışmış, müalicələrinin uğurla aparıldığını qeyd etmiş, bütün bunlara görə minnətdarlıqlarını bildirmişlər. Həmçinin konfransda Duzdağ Fizioterapiya Mərkəzində müalicə kursu keçmək istəyən Qazaxıstan vətəndaşlarının sualları ətraflı cavablandırılmışdır.

Qazaxıstanın “Sultan TRAVEL” turizm şirkətinin direktoru Sımbat Kuyşenova çıxış edərək Qazaxıstan Respublikası ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında turizmin inkişafı sahəsində görüləcək işlərdən bəhs etmişdir. Qazaxıstanda bronxialastma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanların Naxçıvan Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunacaqlarına görə məmnun olduqlarını qeyd edən Sımbat Kuyşenova konfransın keçirilməsinə göstərilən dəstəyə görə minnətdarlıq etmişdir.

Hazırlanmış reklam-informasiya materialları konfrans iştirakçılarına təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Turizm Departamenti**

# Elm ocağının mənəvi xəzinəsi



***Xalqımızın yaratdığı kitab xəzinəsinin incisi olan "Avesta", "Kitabi-Dədə Qorqud" və başqa ölməz əsərlər müdrik ideyaları ilə dilindən, dinindən və irqindən asılı olmayaraq, bütün insanlığı valeh edir. Bu mənəvi irsi gil lövhələrdən ibarət olan, papirus, perqament kitabları və nəhayət, onları kağız üzərində yazılmış kitablar əvəz edərək bu günümüzə qədər gətirib çatdırıb. Milli sərvətimiz olan bu qiymətli tarixi kitabların toplanıb mühafizə edilməsində, nəsildən-nəslə çatdırılmasında kitabxanaların böyük rolu vardır. Belə mədəniyyət müəssisələrindən biri Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasıdır. Kitabxana 50 illik fəaliyyəti dövründə muxtar respublikanın ən böyük kitabxana-informasiya müəssisələrindən birinə çevrilərək elmimizin inkişafında, ixtisaslı kadrların yetişdirilməsində əvəzsiz rol oynayıb.***

Öncül ziyalılarımızdan olan Əli Əliyev, Şövqi Ağayev, Kərim Həsənov, Yavuz Axundov, Abbas Mehdiyev və başqalarının göstərdiyi köməklik nəticəsində təşkil edilən kitabxana 1968-ci il aprel ayının 23-dən fəaliyyətə başlayıb. İlk vaxtlar 400-ə yaxın kitabla oxucularına xidmət edən bu mədəniyyət müəssisəsinin fonduna qısa zamanda Bakı şəhərində fəaliyyət göstərən kitabxanalardan Azərbaycan, rus və başqa dillərdə olan müxtəlif kitablar hədiyyə edilib.

Milli-mədəni sərvətlərimizə xüsusi qayğı göstərən ümummilli liderimiz Naxçıvan Dövlət Universitetində olarkən kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya texnologiyaları ilə təchiz olunması, kitab fondunun informasiya-kommunikasiya texnologiyalarının əsas infrastrukturu olan kompüterlərə köçürülməsi və internet şəbəkəsinə qoşulması haqqında dəyərli tövsiyələr verib.

1999-cu ildə muxtar respublika rəhbərinin qayğısı sayəsində kitabxananın fondu daha da zənginləşdirilib, maddi tədris bazası ən müasir tələblər səviyyəsində qurulub, son model avadanlıqlarla təchiz edilib, yeni tədris korpusunda keçirilən dərslərə uyğun bədii ədəbiyyatlar bu binanın birinci mərtəbəsində yerləşdirilib, digər ədəbiyyatlar kitabxana üçün yenidən təmir olunmuş ikimərtəbəli binaya köçürülüb.

Kitabxanada ənənəvi texnologiyalardan informasiya-kommunikasiya texnologiyalarına keçid 1999-2000-ci illərdə başlanıb.

Elmi kitabxana abunə, məcburi nüsxələr və hədiyyə yolu ilə zənginləşdirilərək müxtəlif elm sahələri üzrə ayrıca fondlarda komplektləşdirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamına əsasən təkcə 2005-2008-ci illərdə latın qrafikası ilə nəşr olunan kitablardan 30 mindən çoxu kitabxanamıza hədiyyə edilib. Bu proses bu gün də davam etdirilməkdədir. Bu dövlət qayğısının əsasında "Kitabxana fondu nə qədər dəyərli və qiymətli nəşrlərlə zəngin olarsa, oxucuların sorğuları da bir o qədər çox olar" prinsipi durur.

Kitabxanada idarəetmənin təkmilləşdirilməsi üçün yeni tərkibli Kitabxana Elmi Şurası, Ədəbiyyatın elmi kataloqlaşdırılması, Sənədlərin bərpası və surətçıxarma şöbələri yaradılıb. EBSCO elektron məlumat bazasında müxtəlif adda xarici tammətnli elmi jurnallardan internet vasitəsilə istifadə etmək imkanı



əldə edilib, kitabxananın avtomatlaşdırılması, müasir kompüter texnologiyalarından istifadə sahəsində bir sıra nailiyyətlər qazanılıb, oxuculara xidmət işində mütərəqqi iş üsulu tətbiq edilib. Müxtəlif illərdə kitabxana əməkdaşları dövlət və universitet rəhbərliyi tərəfindən mükafatlandırılıblar.

Elmi kitabxanada hazırda iki şəbəkə kitabxanası fəaliyyət göstərir. Kitabxanamızın qazandığı ən böyük nailiyyətlərdən biri 1997-ci il aprel ayının 5-də Heydər Əliyev Universiteti Kitabxanasının yaradılması olub. Ulu öndər Heydər Əliyevin həyatı və siyasi irsinin öyrənilməsində bu kitabxana mühüm rola malikdir. Kitabxana 500-dən artıq kitab, jurnal, nadir tarixi sənədlər və arxiv, audio-video materiallarından, albom və bukletlərdən ibarətdir. Buradakı bütün çap materiallarının elektron kataloqu hazırlanaraq kitabxananın saytına yerləşdirilib ki, bu da istənilən məsafədən oxucularımızın dahi şəxsiyyətin irsini öyrənmələrinə və tədqiqat işi aparmalarına imkan verir. Ümummilli liderin həyatının və siyasi fəaliyyətinin öyrənilməsində Heydər Əliyev Universiteti Kitabxanasının böyük rolu vardır.

2000-ci ildə Tibb fakültəsinin nəzdində yaradılan kitabxana ali təhsilli tibb mütəxəssislərinin yetişməsində mühüm rola malikdir. Kitabxanaya 1000-dən çox kitab hədiyyə olunub. Hazırda Tibb kitabxanasında 5000-ə yaxın çap materialı vardır ki, onlardan nəinki Tibb fakültəsinin, həmçinin Təbiətşünaslıq, Baytarlıq təbabəti, Pedaqogika və digər ixtisasların müəllim və tələbələri də bəhrələnirlər.

Muxtar respublika rəhbərinin daim diqqət və qayğı göstərdiyi Elmi kitabxananın binası təmir olunaraq 2013-cü il iyulun 9-da yenidən istifadəyə verilib, burada elektron kitabxana yaradılıb. Yenidənqurma işləri zamanı kitabxanada müasir surətköçürmə aparatı, elektron informasiya köşkü, əsas və ehtiyat server quraşdırılıb, elektron oxu zalı üçün 20, işçi yeri üçün 10 kompüter, konfrans zalı üçün elektron lövhə və noutbuk alınıb. Elektron kitabxanaya müraciət edən hər bir oxucu Prolib Avtomatlaşdırılmış İdarətmə Sistemi vasitəsilə elektron qeydiyyatdan keçdikdən sonra seçdiyi çap məhsulunu sifariş edə, yaxud elektron köşk vasitəsilə axtardıqdan sonra elektron oxu zalında istifadə edə bilir.

*Lib.ndu.edu.az* saytı kitabxananın geniş oxucu kontingenti üçün nəzərdə tutulub. Saytda kitabxananın tarixi, strukturu, keçirilən tədbirlər, beynəlxalq əlaqələr, elektron kataloq və elektron kitabxana bölmələri mövcuddur. Prolib proqramı vasitəsilə 4 mindən artıq kitabın elektron PDF-i və 40 mindən artıq elektron kataloq artıq *lib.ndu.edu.az* saytına yerləşdirilib.

Universitetdə distant təhsil sisteminə keçidlə əlaqədar olaraq lazımi elektron kitab ehtiyacı da məhz Elmi kitabxananın imkanları hesabına ödənilir. 170 mindən artıq kitab fondu olan kitabxanada elmi kataloqlaşdırma, xidmət və fondun mühafizəsi, avtomatlaşdırma və kitabişləmə şöbələri, həmçinin 9 fond və 10 oxu zalı fəaliyyət göstərir. Kitabxanada AMEA-nın həqiqi üzvləri İsa Həbibbəylinin, Məmməd Cəfər Cəfərovun, Budaq Budaqovun, müxbir üzv Saleh Məhərrəmovun, professor Rudolf İvanovun, professor Georgi Xəzainin, fizika-riyaziyyat elmləri doktoru Zöhrab Vəliyevin şəxsi kitab fondları saxlanılır.

Kitabxananın hər bir mərtəbəsində və şəbəkə kitabxanalarında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş oxunması zəruri olan kitablardan ibarət sərgi yaradılıb. Müntəzəm olaraq həmin kitabların müzakirəsi təşkil edilir.

Qeyd edək ki, 20 minə yaxın oxucusu olan kitabxanada müxtəlif mədəni-kütləvi tədbirlər, kitab sərgiləri, qısamüddətli və daimi sərgilər, həmçinin kitab təqdimatları və müzakirələri, dəyirmi masalar keçirilir. Bu tədbirlərin əsas məqsədi kitabxanaya oxucu kontingentinin cəlb olunmasıdır.

Kitabxananın 50 illik yubileyi münasibətilə "Universitet əməkdaşlarının biblioqrafiyası" və "Yarıməsrlik elm məbədi" adlı iki yeni kitab da yaxın günlərdə oxucuların istifadəsinə veriləcək.

Bu gün biz kitabxana kollektivlərinin qarşısında oxuculara xidmət etikasının mühüm tələblərinə əməl etmək kimi bir vəzifə durur. Kitabxanaçı elə keyfiyyətlərə malik olmalıdır ki, oxucu ilə səmimi ünsiyyət yarada, kitabxananın fasiləsiz fəaliyyət göstərməsini təmin edə bilsin. Kitabxanaları canlı orqanizm kimi qiymətləndirildiyi müasir zəmanəmizdə bu mədəniyyət müəssisələrimiz, doğrudan da, həyata keçirdiyi vəzifələr, insanlara xidmət baxımından cəmiyyətin mənəvi inkişafında başlıca rola malikdir. Kitabxanalarımız nə qədər ahəngdar, qüsursuz işləsə, kitabxana işində də bir o qədər böyük uğur qazanılar.

**Fariz ƏHMƏDOV**
***Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasının direktoru***

*Dünən Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirə ilə bağlı yığıncaq olub.*

# Yüngül Atletika Federasiyasında yığıncaq keçirilib



Yığıncağı giriş sözü ilə açan Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov bildirib ki, keçirilən müşavirədə Ali Məclisin Sədri cənab Vasif Talıbov idmanın daha da inkişaf etdirilməsi və buraxılan nöqsanların aradan qaldırılması ilə bağlı federasiyalara da müvafiq tapşırıqlar verib.

Qeyd edilib ki, muxtar respublikada fəaliyyət göstərən federasiyalardan biri də Yüngül Atletika Federasiyasıdır. Hazırda federasiyanın nəzdində iki klub və 7 rayon bölməsi fəaliyyət göstərir. Klub və bölmələrdə təşkil edilən 84 qrupda 695 idmançı təlimlərdə iştirak edir. Bunlardan 280-i qız, 415-i isə oğlandır. Klub və bölmələrdə idmançılarla 11 məşqçi-müəllim məşğul olur.

Diqqətə çatdırılıb ki, Yüngül Atletika Federasiyası Gənclər və İdman Nazirliyi ilə birgə bütün idman yarışlarının yüksək səviyyədə hazırlanmasına və keçirilməsinə çalışıb. 2018-ci ili federasiya üçün uğurlu il hesab etmək olar. Belə ki, il ərzində federasiyanın idmançıları 1 beynəlxalq, 3 ölkə, 5 muxtar respublika əhəmiyyətli və 17 rayon birinciliyində öz qüvvələrini sınayıb və uğurlu nəticələr əldə ediblər. Federasiya qazanılan medalların sayına görə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin fəxri fərmanı ilə təltif edilib, atletimiz Gülayə Cəfərova "İlin ən yaxşı gənc idmançısı", Şamil Hüseynov isə "İlin ən yaxşı gənc məşqçisi" adlarına layiq görülüblər. Federasiyanın idmançılarından 3 nəfəri Azərbaycan yığma komandasının üzvlüyünə namizəd qəbul edilib, idmançılarımız və məşqçi-müəllimlərimiz üçün Azərbaycan Respublikası Atletika Federasiyasının peşəkar mütəxəssisləri tərəfindən treninq təlimləri keçirilib.

Rövşən Məmmədov qeyd edib ki, bütün bunlarla yanaşı, nöqsanlar da olub. Xüsusilə federasiyanın bölmələrinə cəlb edilən idmançıların sayının artırılması ilə bağlı əlavə tədbirlər görülməli, muxtar respublikada yüngül atletika idman növü üzrə kütləviliyə nail olmaq üçün təşviqat işləri daha da gücləndirilməlidir.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, 2018-ci il ərzində ayrı-ayrı idman növləri üzrə muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib, idmançılarımız dünya çempionatlarında 2, Avropa çempionatlarında 3, beynəlxalq turnirlərdə 84, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında 1, Azərbaycan birinciliklərində 105 medal olmaqla, ümumilikdə, 195 medal qazanıblar. Cari ildə Yüngül Atletika Federasiyasının idmançıları Bakı şəhərində keçirilən oğlan və qızlar arasında yüngül atletikanın kross qaçışı üzrə Azərbaycan birinciliyində və Azərbaycan çempionatında, "Küləyə qalib gəl" devizi altında Bakı Marafonu beynəlxalq turnirdə iştirak ediblər. Ümumilikdə isə, federasiya idmançıları ölkə birinciliklərindən 22 müxtəlif əyarlı medal qazanıblar.

Federasiyanın sədr müavini İntiqam Rəhimov 2018-ci ildə görülən işlər barədə məlumat verdikdən sonra məşqçi-müəllimlərin fikir və təklifləri dinlənilib.

Sonra 2019-cu il üçün hazırlanmış tədbirlər planı imzalanıb. Eyni zamanda il ərzində uğur qazanan atletlər mükafatlandırılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

# Seminar-müşavirə



Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar görülən işlər və qarşıda duran vəzifələr barədə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində seminar-müşavirə keçirilib.

Tədbiri giriş sözü ilə açan ekologiya və təbii sərvətlər naziri Mayis Əliyev bildirib ki, müvafiq sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə nazirliyin əlaqədar şöbə və sektorları, tabeli idarə və müəssisələri tərəfindən Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi ixtisasının IV kurs tələbələrinin istehsalat təcrübələrini səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb. Ötən il bu məsələ ilə bağlı keçirilən yığıncaqda ümumi istiqamətlər müəyyənləşdirilib, xüsusilə təbii xammal ehtiyatları ilə zəngin olan diyarımızda bu sahələrdə mütəxəssis kadrların hazırlanması və onların təcrübi biliklərə yiyələnməsi üçün Naxçıvan Dövlət Universiteti ilə birgə fəaliyyət təşkil olunub. Ekologiya mühəndisliyi ixtisasının tələbələri bu tədris ilində nazirliyin təşkilatçılığı ilə istehsalat təcrübəsində olublar.

Nazir qeyd edib ki, gələcəkdə bu sahədə birgə fəaliyyət ardıcıllığının təmin edilməsi üçün tədbirlər planının hazırlanması görülən işlərin səmərəliliyini artıracaqdır.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov sərəncamdan irəli gələn vəzifələrin icrasının savadlı və təcrübəli kadrların hazırlanmasında mühüm rol oynadığını vurğulayıb, gələcəkdə bu sahədə əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini qeyd edib.

Tədbirdə nazirliyin şöbə müdiri, istehsalat təcrübəsinin qrup rəhbəri Azər Məmmədov, universitetin Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov və istehsalat təcrübəsi keçmiş IV kurs tələbəsi Nahid Hüseynov çıxış ediblər.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

# 2018-ci ilin quruculuq ərməğanları

## Müasirləşən kəndlərimiz


Culfa rayonunun Qazançı kəndi


Şərur rayonunun Ərəbyengicə kəndi


Babək rayonunun Aşağı Buzqov kəndi


Şərur rayonunun Kosacan kəndi


Şərur rayonunun İbadulla kəndi


Culfa rayonunun Dizə kəndi

*Ömrümüzə öz izlərini yazan və həmişə yüksək ovqatla xatırlayacağımız 2018-ci il muxtar respublikamızda həyatın bütün sahələrində əldə edilmiş nailiyyətlər, böyük uğurlar ili kimi yadda qalacaq.*

*Necə xarakterizə etmək olar 2018-i? Bunu bütün çalarları ilə qələmə almaq üçün, sözün həqiqi mənasında, xeyli vaxt lazımdır. Qısaca olaraq onu deyək ki, dinamik xarakter alan tikinti-quruculuq tədbirləri, yeni emal və istehsal müəssisələrinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində görülən işlər 2018-ci ildə də uğurla davam etdirildi. Muxtar respublikamızın onlarla kəndi müasir yaşayış məntəqəsinə çevrildi. Qədim diyarımızın quruculuq xəritəsinə təhsil, mədəniyyət, səhiyyə, rabitə və digər sahələr üçün inşa edilmiş yeni binalar əlavə olundu. İnsanların məşğulluğunun təmin edilməsi istiqamətində tədbirlər davam etdirildi.*

*Muxtar respublikanın şərəfli tarixinə qızıl hərflərlə yazılacaq illərdən biri oldu 2018-ci il. Çünki bir ildə muxtar respublikamızın paytaxtı Naxçıvan həm İslam Mədəniyyətinin, həm də ölkəmizin Gənclər Paytaxtı statusunu şərəflə daşıdı. Bununla bağlı muxtar respublikada keçirilən geniş istiqamətli tədbirlərdə dünyanın müxtəlif ölkələrindən gələrək iştirak edən qonaqlar da qədim diyarımızın sürətli inkişaf yolunda olduğunu, burada milli-mənəvi dəyərlərə yüksək ehtiram göstərildiyini gördülər.*

*Bütün bunlar isə muxtar respublikada doğma yurd yerinə bağlılığın, sabaha cavabdehlik hissinin, qurub-yaratmaq əzminin davamlı olacağına bir daha əminlik yaradır, 2019-cu ilin də uğurlu illərdən biri olacağına inamımızı artırır.*

## Bayram tədbirləri keçirilən zaman yangın təhlükəsizliyi qaydalarına əməl edilməlidir

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən təhsil, səhiyyə, mədəniyyət müəssisələrində, uşaq bağçalarında və insanların bayram şənliyinə toplaşdığı digər yerlərdə maarifləndirmə tədbirləri həyata keçirilib.***

Nazirlik yeni il şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı aşağıda qeyd olunan yanğın təhlükəsizliyi qaydalarının tələblərinə əməl olunmasını tövsiyə edir:

– Bayram tədbirləri ilə əlaqədar quraşdırılan küknar ağacı möhkəm dayaq üzərində qurulmalı və ətrafında sərbəst hərəkət etmək üçün geniş məsafə saxlanılmalıdır. Küknar ağacı elektrik qurğularının quraşdırılması qaydalarına riayət olunmaqla işıqlandırılmalıdır. İşıqlandırılma şəbəkəsinin elektrik cərəyanından istifadə edərkən tənzimləyicilərin vasitəsilə 12 voltluq gərginlikli lampalardan istifadə olunmalı, elektrik naqilləri, işıqlandırma lampaları saz olmalı və etibarlı izolyasiya edilməlidir. Şənliklər zamanı, adətən, bir neçə güclü elektrik şəbəkəsi həddindən artıq yüklənir və yanğın təhlükəsi yaranır. İşıqlandırmada nasazlıq hiss olunduqda onu elektrik şəbəkəsindən ayırmaq lazımdır.



– Yeni il şənlikləri keçirilərkən azyaşlı uşaqlara qızdırıcı və yaxud işıqlandırıcı cihazlardan istifadə edilməsi qadağan olunmalıdır. Yadda saxlamaq lazımdır ki, bir elektrik uzadıcısına bir neçə elektrik cihazının qoşulması və həmin xəttin artıq yüklənməsi nəticəsində yanğın hadisəsi baş verə bilər. Ona görə də bayram şənlikləri keçirilən otaqların elektrik xətlərinin izolyasiyası saz vəziyyətdə olmalıdır.

– Yeni il tədbirləri və şənlikləri təşkil olunan yerlər yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi məqsədilə ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir. Müəssisə rəhbərliyinin əmri ilə yanğın təhlükəsizliyi qaydalarının yerinə yetirilməsinə nəzarət üçün cavabdeh şəxslər təyin olunmalı və şənliklərin keçirilməsi nəzərdə tutulmuş yerlərdə yanğın təhlükəsizliyinə həvalə edilmiş cavabdeh şəxslər şənlik başlanmazdan əvvəl otaqları diqqətlə yoxlamalı və onun yanğına qarşı təhlükəsizliyinin tam təmin edildiyinə əmin olmalıdırlar.

– Bayram şənliklərinin keçirilməsi nəzərdə tutulan zallarda və otaqlarda siqaret çəkmək, zalın keçidlərinə stul qoymaq, köçürmə çıxış qapılarını bağlamaq və otağa təyin olunmuş normadan artıq adam yerləşdirmək qadağandır.

– Yaşayış evlərində yeni ilin küknar ağacı soba və başqa qızdırıcı cihazlardan kənarda möhkəm özül üzərində, bəzək işıqları isə yanğın təhlükəsizliyi qaydalarının tələblərinə riayət etməklə quraşdırılmalıdır.

– Yeni il şənlikləri zamanı baş verən yanğın hadisələrinin əksəriyyəti uşaqların dəcəlliyindən yaranır. Ona görə də yeni il şənlikləri keçirilərkən kiçikyaşlı uşaqlar valideynləri tərəfindən xüsusi nəzarətdə saxlanılmalıdır. Onların qığılcımsaçan və işıqlandırıcı vasitələrdən istifadə etmələrinə icazə verilməməlidir.

– Qeyd olunanlarla bağlı baş verə biləcək xoşagəlməz hadisələrin vaxtında qarşısının alınması istiqamətində vətəndaşlarımız bir daha diqqətli olmalı, təhlükəsizlik məsələlərində fəal iştirak etməli və belə hallarla üzləşdikdə dərhal Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin ***“112”*** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin ***“101”*** xidmətinə məlumat verilməlidir.

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

### İtmişdir

Naxçıvan şəhəri, Xətai məhəlləsi döngə 7, ev 11-də yaşayan Hüseynov Vahid Cabbar oğlunun adına olan 16017 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Mətanət Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 932